# AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

**№ 153** **Bakı şəhəri, 14 aprel 2022-ci il**

***Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının İşçi qrupunun fəaliyyətinin təmin edilməsi və Azərbaycan Respublikası Nazirlər Kabineti-nin "Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası İşçi qru-punun ştat sayı və aylıq vəzifə maaşlarının təsdiq edilməsi haqqında" 2001-ci il 25 sentyabr tarixli 156 nömrəli və "Dövlət büdcəsindən maliyyələşən bir sıra təşkilatlarda çalışan işçilərin aylıq vəzifə maaşları haqqında" 2022-ci il 14 yanvar tarixli 10 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respub-likasında dövlət idarəçiliyinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 14 yanvar tarixli 464 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" 2021-ci il 12 fevral tarixli 1286 nömrəli Fərmanının 2-ci hissəsinə və "Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 18 iyul tarixli 536 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə" 2022-ci il 11 mart tarixli 1630 nömrəli Fərmanının 2-ci hissəsinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

**1.** "Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının İşçi qrupunun ştat sayı" təsdiq edilsin (əlavə olunur).

**2.** "Dövlət büdcəsindən maliyyələşən bir sıra təşkilatlarda çalışan işçilərin aylıq vəzifə maaş-ları haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 14 yanvar tarixli 10 nömrəli Qərarına 8-1 nömrəli əlavə - "Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası İşçi qrupunun işçilərinin aylıq vəzifə maaşlarının cədvəli" təsdiq edilsin.

**3.** Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası-nın İşçi qrupu Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin inzibati ərazisində yerləşdirilməklə, onun maddi-texniki təminatı, maliyyə əməliyyatlarının aparılması, işçilərinin sosial müdafiəsi və kadr qeydiyyatının həyata keçirilməsi Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən təmin edilsin.

**4.** Müəyyən edilsin ki:

4.1. İşçi qrupunda çalışan rəhbər və digər işçilərə iş stajına, xüsusi lazımlı işlərin yerinə yetirilməsinə görə əlavələr, maddi yardım və mükafatlar "Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin dövlət qulluqçusu olmayan mülki işçilərinin əməyinin ödənilməsi sistemi, növləri və məbləği"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 5 iyun tarixli 245-7 nömrəli Qərarı ilə müəyyən edilmiş qaydada ödənilir;

4.2. İşçi qrupu üçün 1 (bir) xidməti minik avto-mobili nəzərdə tutulur.

**5.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının İşçi qrupunun saxlanılması ilə bağlı xərclərin cari il üçün maliyyələşdirilməsini və hər il üçün tərtib edilən dövlət büdcəsində nəzərdə tutulması ilə bağlı tədbirlər görülməsini təmin etsin.

**6.** "Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının İşçi qrupunun ştat sayı və aylıq vəzifə maaşlarının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 25 sentyabr tarixli 156 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 9, maddə 636; 2005, № 1, maddə 52; 2007, № 7, maddə 739; 2016, № 9, maddə 1585) 1-ci və 2-ci hissələri ləğv edilsin.

***Əli ƏSƏDOV***
***Azərbaycan Respublikasının Baş naziri***

**Xalq qəzeti.- 2022- ci il.- 16 aprel.- S. 8.**